# Gənclər və idman siyasəti Azərbaycanın parlaq gələcəyinə xidmət edir

***Hər bir ölkənin sabahı gənclərə ərməğan olduğu kimi, gənclər də sabahın sahibləri olaraq ölkənin gələcəyini müəyyən edirlər. Onlar estafeti layiqincə daşıyır, milli-mənəvi dəyərləri yaşadır, tərəqqiyə töhfələr verirlərsə, təmsil etdikləri millətə, xalqa zaval yoxdur. İkinci Qarabağ müharibəsində müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə doğma torpaqlarımızın 30 illik erməni işğalına son qoyaraq, əzəli və əbədi ərazilərinə yiyələnən müasir Azərbaycan gəncliyi buna gözəl nümunədir.***

Artıq şərəf tarixinə çevrilmiş 2020-ci ildə gənclərimizin qanı ilə yazılmış qələbə salnaməsinin sətirləri əsrlərcə solmayacaq. Məhz gənclərimiz öz ata-babalarının şöhrət yolunu Vətən müharibəsində şərəflə davam etdiriblər. Cənab İlham Əliyev Bakının "Azadlıq" meydanında keçirilən Zəfər paradında bu barədə fikirlərini tükənməz iftixar hissi ilə ifadə edib: "Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi".

Prezident İlham Əliyev gənc kadrların irəli çəkilməsi ilə bağlı da ardıcıl olaraq əməli addımlar atır, gənclər siyasətini zamanın çağırışlarına uyğun şəkildə yeni aspektdə gerçəkləşdirir. İndi neçə-neçə layiqli gənc özünü nazir, icra hakimiyyəti başçısı və digər məsuliyyətli vəzifələrdə doğruldur. On il əvvəl Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması ölkəmizdə gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, daha bir əyani sübutudur.

Sentyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fərid Qayıbovu Gənclər və İdman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib və gənclərimizin şanlı ənənələri layiqincə davam etdirdiklərini xüsusi vurğulayıb. Dövlətimizin başçısı deyib ki, bütün bunlar fərəhlidir, amma uğurlarla bərabər, bütövlükdə gənclərimizin tərbiyəsi prosesi ciddi diqqət mərkəzində olmalıdır. Onlar ənənəvi milli dəyərlər əsasında, vətənpərvərlik ruhunda böyüməli və irəli getməlidirlər. Gənclərimizin mənfi xarici təsirdən uzaq olmaları üçün aparılan işlər daimi səciyyə daşımalıdır. Hər bir oğlan və qız savadı, biliyi ilə seçilməli, mütləq mənada, milli mədəniyyətimizin daşıyıcısı olmalıdır. Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində fərqlənən gənclərimizin sayı daha da artmalıdır.

Gənclik və idman daim qoşa səslənən ifadələrdir. Gənclik olan yerdə idman, idman olan yerdə gənclik var. Buna görə də dövlətimizin gənclər siyasətində idman mühüm yer tutur. Ölkə rəhbərinin ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələri ilə bir sırada vüqarla addımlayır. 2017-ci ildə Milli Olimpiya Komitəsinin 25 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə bu komitənin prezidenti olan cənab İlham Əliyev Azərbaycanda idmana verilən önəmi yüksək qiymətləndirib: "Bütün müvafiq qurumlar, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, idman cəmiyyətləri, federasiyalar, klublar bir məqsədi güdür ki, Azərbaycanda idman daha da inkişaf etsin, idmanın kütləviliyi daha da geniş vüsət alsın və idmançılarımız bizi beynəlxalq yarışlarda tez-tez sevindirsinlər. Bax, bu birgə fəaliyyət nəticəsində və idmana cavabdehlik daşıyan bütün qurumlar arasındakı koordinasiya sayəsində Azərbaycan beynəlxalq aləmdə idman sahəsində çox böyük uğurlara imza atmışdır".

Bəli, məhz idmanın yaratdığı sağlam bədən – sağlam ruh vəhdəti sayəsində gənclərimiz bu günün qəhrəmanları səviyyəsinə yüksəliblər. İdmançı gənclər yeganə sosial təbəqədir ki, onların qələbələri şərəfinə dövlət himni səslənir, milli bayraq qaldırılır. Qürurla xatırlayırıq ki, hələ 2009-cu ildə Ermənistanın paytaxtı İrəvan şəhərində keçirilən Gənclərin Avropa çempionatının qızıl medalçısı, cüdoçu Elmar Qasımovun şərəfinə himnimizin səsləndirilməsi, bayrağımızın qaldırılması idman sarayında olan hər kəsi, o cümlədən, erməniləri də necə ayağa qaxmağa məcbur etmişdi. Elə bu faktın özü də işğalçı Ermənistan üzərində qazanılacaq böyük qələbənin heç də uzaqda olmadığına dəlalət edirdi.

Ondan əvvəl Ramil Səfərovun, sonra Mübariz İbrahimovun igidlik və ləyaqət nümunələri, 2016-cı ilin aprelində şanlı Lələtəpə döyüşləri, ötən ilin iyulunda Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində erməni ordusunun təxribatına verilən tutarlı cavab da tarixi qələbəmizi yaxınlaşdıran şərəfli səhifələrdir. İdmançılarımızın, hərbçilərimizin həyatında bənzər faktların çox olması tükənməz iftixar duyğuları yaradır.

Bizim gənclər üçün fəaliyyət üfüqlərini genişləndirən dövlət proqramlarımız, gənclər siyasəti haqqında işlək fərman və qanunumuz var. Gənclər və İdman Nazirliyi bu istiqamətdə hərtərəfli tədbirlər həyata keçirir. Hər il fevralın 2-si Azərbaycan Gəncləri Günü təntənə ilə qeyd olunur. Müvafiq nazirliyin fəaliyyətində faydalı iş əmsalının daha da artırılması məqsədilə yürüdülən kadr siyasətinin əsasında işıqlı sabahımıza daha böyük əminliyin yaranması məramı durur.

Prezident İlham Əliyev yeni gənclər və idman nazirinə bununla bağlı dəyərli tövsiyə və tapşırıqlarını verdi. İdman ölkəsi kimi tanınan Azərbaycanın mötəbər beynəlxalq yarışlarda – olimpiadalarda, dünya və Avropa çempionatlarında parlaq qələbələr qazanması ənənəsini layiqincə davam etdirmək zərurətini önə çəkdi: "Beynəlxalq yarışlarda idmançılarımız yüksək nəticələr göstərirlər. Düzdür, Azərbaycan ictimaiyyəti bizim idman sahəsindəki qələbələrə öyrəşib və əgər biz hansısa nəticəni əldə edə bilmiriksə, əlbəttə ki, məyus olur. Ancaq hamımız bilməliyik ki, idman sahəsində rəqabət kifayət qədər güclüdür və bütövlükdə son illər ərzində idman sahəsində göstərilən nəticələr, əlbəttə, qürurvericidir. İdmançılarımız dünya, Avropa oyunlarında, digər beynəlxalq yarışlarda bizi sevindirirlər. Son Yay Olimpiya Oyunlarında Rio Olimpiya Oyunları ilə müqayisədə az medal qazansaq da, yenə də hesab edirəm ki, idmançılarımız yaxşı nəticə göstəriblər. Medalların sayına görə Azərbaycan 33-cü yeri, Avropa ölkələri arasında 20-ci, müsəlman ölkələri arasında isə 4-cü yeri tutub... Paralimpiyaçılarımız bizi çox sevindirib və böyük məharət, peşəkarlıq, fədakarlıq göstərərək çoxlu medallar, o cümlədən, bir çox qızıl medallar qazanıblar. Əlbəttə ki, bu da çox önəmli hadisədir və biz haqlı olaraq paralimpiyaçılarımızla fəxr edirik".

Dövlət başçısı, eyni zamanda, idman sahəsində buraxılan bəzi nöqsanlara da diqqəti cəlb edib və bunların ciddi araşdırılmalı, təhlil edilməli olduğunu bildirib. Xüsusilə Olimpiya Oyunlarına hazırlıq dövründə bəzi federasiyalarda işlər qənaətbəxş olmayıb. Narahatlıq doğuran bir məqam da odur ki, son olimpiya oyunlarında medal qazanmış idmançılarımız əsasən təcrübəli və demək olar ki, veteran atletlər oldular. Bu sırada gənclərin sayı az idi. Bu, çox ciddi təhlil edilməli, fəxri kürsüyə ucalan qaliblər arasında məxsusi bir gəncləşmə prosesinə nail olunmalıdır.

Diqqət yetirilməli olan daha bir məqam: son illərdə bütün regionlarımızda müasir idman obyektlərinin tikintisi geniş vüsət alıb, təkcə rayonlarda 50-yə yaxın idman-olimpiya kompleksimiz fəaliyyət göstərir. Dünyanın az ölkəsində belə əlverişli şərait var. Amma bölgələrimizdə həmin komplekslərin imkanlarından o qədər də səmərəli istifadə olunmur. Mövcud idman zalları bəzən boş qalır və bunu COVID-19 pandemiyası ilə əlaqələndirirlər. Lakin bu da təkzibedilməz faktdır ki, hazırda ölkəmizdə bütün idman salonlarınını fəaliyyətinə icazə verilib və məşq proseslərinin intensivliyinin artırılması üçün konkret addımlar atılmalıdır. İdman infrastrukturu, məşq və toplanışlar üçün komplekslər o məqsədlə yaradılıb ki, həm idmanın kütləviliyi artsın, həm də ölkənin yığma komandaları üçün peşəkar idmançılar hazırlansın. Bu baxımdan, Tokio Olimpiya Oyunlarında gənc idmançıların medallar qazana bilməmələri ciddi siqnaldır. Qələbələr öz yerində, eyni zamanda, çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır. Bu sahədə şəffaflıq tam təmin edilməli və bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır.

İdmançılar arasında tərbiyə, intizam və sayıqlıq məsələləri də vacibdir. Çünki bəzi hallarda xarici dairələr gəncləri hədəf seçir, onları aldadıb yoldan çıxarmağa çalışırlar. Bunun qarşısı qətiyyətlə alınmalı, xüsusilə də gənc idmançılara güclü vətənpərvərlik hissləri aşılanmalıdır. Prezident İlham Əliyevin bununla bağlı verdiyi konkret tövsiyələr son dərəcə diqqətəlayiqdir: "Əlbəttə ki, ikinci Qarabağ müharibəsindəki parlaq tarixi qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır. 44 günlük Vətən müharibəsinin hər günü bizim üçün əzizdir, doğmadır. Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bizim üçün doğmadır, bizim üçün müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar. Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var. Uzun illər Azərbaycan işğala məruz qalmış ölkə, biz azərbaycanlılar isə düşmən tərəfindən öz doğma torpağından didərgin salınmış xalq kimi yaşamışıq, əzab-əziyyət içində yaşamışıq, fiziki və mənəvi əzablar içində yaşamışıq. Biz buna son qoyduq. Bundan sonra müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi əbədi yaşayacağıq. Bu şanlı tarixi yaşatmaq üçün, qorumaq üçün və gəncləri bunun əsasında tərbiyə etmək üçün sizin nazirliyinizin üzərinə böyük vəzifələr düşür".

Prezidentin nazir vəzifəsinə təyin etdiyi Fərid Qayıbov gənclər və idman sahəsində yeni adam deyil. Ölkəmizin idman ictimaiyyəti onu daha yaxşı tanıyır. Uzun illərdir ki, məhz idman sahəsində məsuliyyətli vəzifələr daşıyır, eyni zamanda, Avropa Gimnastikasının prezidentidir, yeni beynəlxalq arenada da nüfuzu var. Elə bu vacib amillər nəzərə alınaraq, ona nazir postu etibar edilib.

İnanmaq istərdik ki, Gənclər və İdman Nazirliyinin yeni rəhbərliyi fəaliyyətini, ilk növbədə, Prezidentin tapşırıq və tövsiyələri əsasında quracaq, ən ali səviyyədə ifadə olunan prioritet istiqamətləri gündəlik işində rəhbər tutacaq. İdman sahəsində, gənclər siyasəti sahəsində daha yaxşı nəticələrin şahidi olacağıq.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 9 sentyabr.- S.3.